**Emil Çingiz oğlu GÜLALIYEV**
Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) doktorantı

# MİNİMUM ƏMƏK HAQQININ GƏLİR BƏRABƏRSİZLİYİNƏ TƏSİRİ (PANEL ANALİZ METODU)

**Xülasə**

Məqalədə minimum əmək haqqı səviyyəsinin ölkədə gəlir bərabərsizliyinə təsirləri qiymətləndirilmişdir. Müxtəlif ölkələrin timsalında aparılan tədqiqatların nəticələri bu göstəricilər arasında əlaqənin ölkədən ölkəyə dəyişdiyini və eyni xarakterli olmadığını deməyə əsas verir. Bu tədqiqatda müxtəlif gəlir səviyyəsinə malik ölkələr üzrə panel analiz aparılmışdır. Panel analiz 28 ölkə üzrə 10 ili əhatə edən məlumatlar əsasında aparılmışdır. Panel analizin nəticələri sübut edir ki, bu göstəricilər arasında əks, lakin xeyli zəif əlaqə mövcuddur.

**Açar sözlər:** gəlir bərabərsizliyi, Gini indeksi, minimum əmək haqqı, ev təsərrüfatlarının gəlirləri

## Giriş

Minimum əmək haqqının (MƏH) iqtisadiyyatın bütün sektorlarında və ya ayrı-ayrı sektorlarında tətbiqi dövlətin iqtisadiyyata müdaxiləsi hesab edilir. Belə müdaxilənin səmərəli və hüquqi əsaslı olmasını təmin etmək üçün bəzi ölkələrdə, məsələn, Azərbaycanda xüsusi qanun qəbul edilir. Bəzi ölkələrdə isə MƏH-in tətbiqi mexanizmləri fərqli olur. MƏH-in hər hansı iqtisadi fəaliyyət sahəsində tətbiqi həmin sahələr üzrə formalaşmış həmkarlar təşkilatının qərarı əsasında ola bilər. Hansı mexanizmlə tətbiq edilməsindən asılı olmayaraq, MƏH-in tətbiqi dövlətin iqtisadi siyasətinin tərkib hissəsinə daxil olur və iqtisadiyyata dövlət müdaxiləsi mahiyyətlidir. İqtisadiyyata dövlət müdaxiləsinin bəzi formalarında olduğu kimi MƏH-in tam və ya qismət tətbiqi də ikiqütblüdür. MƏH mexanizmi ilə dövlətin iqtisadiyyata müdaxilənin iki qütblü olması onun həm biznes mühitinə, həm də məşğulların sosial müdafiəsinə təsirləri ilə bağlıdır. Dövlət MƏH ilə bağlı siyasət vasitəsilə muzdlu işçilərin əmək haqqının müəyyən səviyyədən aşağı enməsinin qarşısını almağa çalışır. Bu mahiyyətcə muzdlu işçilərin sosial müdafiəsinin təmin edilməsi deməkdir. Dövlətin, mülkiyyətindən asılı olmayaraq, bütün müəssisələrdə muzdlu işçilərin əmək haqlarının aşağı səviyyəsinin həddinin müəyyən edilməsi, şübhəsiz ki, aşağı ixtisaslı işçilərin sosial müdafiəsinə müsbət təsir edir. Lakin nəzərə almaq lazımdır ki, bəzi ölkələrdə, həmçinin Azərbaycanda MƏH səviyyəsi, həm də, bəzi xidmət sahələrində xidmət haqqının ölçü meyarı kimi çıxış edir. Bu halda MƏH səviyyəsinin artması həmin xidmət haqlarının artmasına səbəb olur. Lakin, MƏH səviyyəsinin artırılması aşağı ixtisaslı işçilərin əmək haqları səviyyəsinə birbaşa təsir etdiyi halda, müxtəlif xidmət haqlarının artmasının təsiri dolayıdır və bütünlükdə əhalinin bütün təbəqələri arasında paylanmış olur.

MƏH-in iqtisadiyyata dövlət müdaxiləsi mexanizmi kimi digər qütbü onun biznes mühitinə təsirləri ilə bağlıdır. Belə ki, MƏH-in artırılması ilə bağlı qanunun və ya hər hansı səviyyədə qərarın qəbulu biznes subyektlərini əmək haqları sisteminə bir daha baxmağı tələb edir. Müəssisədə əmək haqları ilə bağlı xərclərin həcminin dəyişməsi mənfəətə dərhal təsir etdiyindən mənfəətin, heç olmazsa, sabit saxlanılması üçün müvafiq tədbirlərin görülməsi tələb olunur. Lakin, xərclərin azaldılması sahəsində həyata keçirilən tədbirlər elə olmalıdır ki, müəssisənin rəqabət qabiliyyəti azalmasın. Yəni, belə tədbirlər arasında istehsal edilən məhsulların satış qiymətinin artırılması və ya daha ucuz və az keyfiyyətli xammaldan istifadə tədbirləri sonuncu tədbirlərdən ola bilər. Adətən belə hallarda müəssisələr işçilərin sayının azaldılmasına və ya stimullaşdırıcı xərclərin ixtisar edilməsinə daha çox meyillənirlər. Hər iki hal və ya digər hallarda, dolayısı ilə, muzdlu işçilərin sosial müdafiəsinə zərər dəymiş olur. Əgər biznes subyekti MƏH-in artırılmasına öz mənfəətini azaltmaqla reaksiya verirsə, bu, biznes mühitinin zəifləməsinə səbəb olur. Bütün hallarda MƏH-in artırılması biznes subyektlərini daha yüksək əmək haqqı fondu yaratmağa məcbur edir.

MƏH-in məşğulların sosial müdafiəsinə təsirləri aşağı ixtisaslı işçilərin əmək haqlarının artırılması ilə müşaiyət olunur. Əmək haqqının aşağı həddinin MƏH siyasəti vasitəsilə artırılması dolayısı ilə ölkədə gəlir bərabərsizliyinə də təsirsiz

ötüşmür. Belə ki, inflyasiya prosesi dünyanın, demək olar ki, bütün ölkələrində qarşısı alınmayan prosesdir. Bu, digər amillərlə yanaşı, ən azı bir amilə görə, məsələn ölkədə məcmu tələbin artırılması ilə bağlı olaraq, pul kütləsinin artırılması nəticəsində baş verə bilər. MƏH-in tətbiqi aşağı ixtisaslı işçilərin əmək haqqının artırılması ilə inflyasiyanın təsirlərinin müəyyən qədər azaldılmasına imkan verir. Bu halda aşağı gəlirli işçilərlə yuxarı gəlirli işçilər arasındakı gəlir fərqləri müəyyən qədər azalmış olur. Lakin bunu mütləq şəkildə iddia etmək mümkün deyil. Çünki, əksər hallarda, xüsusilə inkişaf etməkdə olan ölkələrdə yüksək ixtisaslı işçilərin gəlirləri aşağı gəlirli işçilərin əmək haqqına nisbətən daha sürətlə artır və MƏH-in artırılması ilə bu fərqin ciddi azaldılmasına nail olmaq mümkün olmur. Buna baxmayaraq, MƏH əhali arasında gəlir bərabərsizliyinin azaldılması istiqamətində hökumətin tətbiq etdiyi iqtisadi müdaxilə mexanizmlərindən biridir.

Qeyd edək ki, gəlir bərabərsizliyi müxtəlif səbəblərdən yarana bilər. Bu səbəblər arasında ixtisasla və ya təhsil səviyyəsi ilə yanaşı, həm də cinsi və irqi səbəblər də ola bilər. MƏH səviyyəsinin gəlir bərabərsizliyinə birqiymətli təsir etməməsinin mühüm səbəbləri var. Belə ki, ilk baxışda MƏH səviyyəsi artırsa, onda aşağı işçilərin əmək haqları yüksəlməlidir və belə işçi qrupunun əmək haqları ilə orta ixtisaslı işçilərin əmək haqqı səviyyəsi arasındakı fərq azalmalıdır. Belə fərqlərin azalması isə bu əhali qruplarının gəlirləri arasındakı qeyri-bərabərlik səviyyəsini azaltmalıdır. Lakin reallıqda proseslər daha mürəkkəbdir. Belə ki, MƏH-in artması biznes mühitinə təsir etdiyindən aşağı ixtisaslı işçilərin işsizlik səviyyəsi arta bilər. Bu halda aşağı ixtisaslı işçilərin mənsub olduğu ev təsərrüfatlarının gəlirləri azala bilər. Belə ev təsərrüfatı qruplarında gəlirlərin azalması isə yenidən qeyri-bərabərliyi sürətləndirə bilər.

MƏH səviyyəsi ilə ev təsərrüfatlarının gəlir bərabərsizliyi arasındakı əlaqənin öyrənilməsi hər bir ölkə üçün mühüm əhəmiyyət daşıyır. Problemin həllinin əhəmiyyətliliyi, hər şeydən əvvəl, MƏH ilə bağlı qərarların səmərəliliyi ilə bağlıdır. MƏH ilə bağlı qərarlar o zaman səmərəli olur ki, əhalinin daha geniş təbəqəsinin, xüsusilə az ixtisaslı işçi təbəqəsinin rifah halı yüksəlmiş olsun. Digər tərəfdən, belə qərarlar biznes mühitinin əlverişliliyinə də zərər vurmamalıdır. MƏH ilə bağlı qərarların səmərəliliyinin qiymətləndirilməsində mühüm göstəricilərdən biri də ev təsərrüfatı qruplarında gəlir bərabərsizliyi səviyyəsidir. Lakin, nəzərə almaq lazımdır ki, MƏH ilə bağlı qərarların gəlir bərabərsizliyinə təsirləri ölkədən ölkəyə dəyişir. Bu iki göstərici arasındakı əlaqənin öyrənilməsinin, nəzəri olaraq, birmənalı qiymətləndirilməməsi, empirik metodlardan istifadəni zəruri edir.

**Ədəbiyyata baxış**

Pelek (2013) [1] Türkiyə timsalında MƏH-in gəlir bərabərsizliyinə təsirlərini əmək haqlarına olan təsir kanalı ilə tədqiq edib. Tədqiqatda 2003-2011-ci illərarası dövrdə MƏH səviyyəsinin artmasından əvvəl və sonra əmək haqqı səviyyəsindəki dəyişikliklər analiz edilmişdir. Əldə edilən əsas nəticə ondan ibarətdir ki, 2003-2005-ci illərarası dövrdə həm qadınlar, həm də kişilər arasında əmək haqqı üzrə qeyri-bərabərliyin azalmasında MƏH-in mühüm rolu olmuşdur.

Qeyd edək ki, gəlirlərin qeyri-bərabərliyi inkişaf etmiş ölkələr üçün, o cümlədən, ABŞ üçün ciddi problemdir. Bu ölkədə MƏH ştatlar üzrə fərqlidir. Federal səviyyədə qəbul edilən qərara əsasən bir saat üçün MƏH 7.25 dollar nəzərdə tutulsa da, 2023-cü ildə bəzi ştatlarda MƏH səviyyəsi xeyli yüksəkdir. Məsələn, Kolumbiyada MƏH səviyyəsi bir saat üçün hətta 16.5 dollar səviyyəsindədir. Vaşınqtonda 15.74 dollar, Kaliforniyada 15.5 dollardır. Digər ştatlarda MƏH səviyyəsi hər iş saatı üçün 15.5 –dən 7.25 dollara qədər azalır. ABŞ-da da gəlirlər arasındakı qeyri-bərabərliyi azaltmaq üçün MƏH instrumentindən istifadə edilir. ABŞ timsalında bu problem elmi-tədqiqat predmeti olaraq, çoxlu sayda tədqiqatçılar tərəfindən analiz edilib.

Malloy (2016) [2] öz tədqiqatında iddia edir ki, az ixtisaslı işçilərin yoxsulluqdan qurtulması üçün MƏH-in tətbiqi zəruridir. MƏH həm də işçi ilə biznes arasında danışıqların aparılması gücünə malikdir. Tədqiqatda işçi ilə firma arasında aparılan danışıqlarda işçinin mövqeyinin möhkəmləndirilməsi üçün MƏH-in rolu əsaslandırılır. Tədqiqatda ABŞ-ın ştatları üzrə aparılan panel analiz göstərir ki, MƏH-in artırılması gəlirlərdəki qeyri-bərabərliyin azaldılmasına müəyyən dərəcədə kömək edir. Tədqiqat göstərir ki, gəlirlərdəki qeyri-bərabərlik səviyyəsinin azaldılması əsasən gəlirlərin paylanmasındakı yuxarı 1%-in hesabına baş verir.

Autor və digərləri (2016) [3] tərəfindən yerinə yetirilən tədqiqat da ABŞ timsalında MƏH-in gəlir bərabərsizliyinə təsirlərinə həsr edilib. Tədqiqatda göstərilir ki, MƏH əmək haqqı üzrə gəlirlərin paylanmasının aşağı hissəsinə təsir edir. Məhz, həmin hissə 1980-ci ildən başlayaraq əmək strukturundakı dəyişikliklərə daha çox məruz qalıb. Cengiz və digərləri (2018) [4] tərəfindən aparılan tədqiqatda MƏH səviyyəsində və ya ondan bir qədər çox əmək haqqı təklif edilən boş iş yerləri ilə MƏH-dən az əmək haqqı verilən iş yerlərinin müqayisəsi əsasında MƏH-in artmasının məşğulluğa təsirini qiymətləndirməyə imkan verən yeni metod təklif edilib. Qeyd edək ki, ABŞ-da federal səviyyədə MƏH səviyyəsi ilə müxtəlif ştatlar səviyyəsində müəyyən edilən MƏH arasında fərqlər mövcuddur. Tədqiqatda 1979-2016-cı illərarası dövrdə MƏH-in 138 dəfə dəyişməsi hadisəsinin analizi aparılaraq, belə bir nəticə əldə edilib ki, əmək haqqı səviyyəsi aşağı olan iş yerlərinin sayı praktiki olaraq azalmayıb. Lakin, MƏH-in artması orta əmək haqqı səviyyəsinin artmasına səbəb olub. Aşağı əmək haqqı ödənişi olan iş yerlərinin azalmaması deməyə əsas verir ki, belə işlərin əvəz edilməsi çətindir. Tədqiqat həmçinin göstərir ki, MƏH-in artması heç də işsizlik yaratmır. Belə ki, MƏH nəticəsində əmək haqqı gəlirləri üzrə qeyri-bərabərliyin azalması heç də əlavə işsizliyə səbəb olmur.

Dube (2019) [5] tərəfindən ABŞ timsalında aparılan tədqiqatda da sübut olunur ki, MƏH-in artması ev təsərrüfatlarının gəlirləri üzrə paylanmada aşağı səviyyədə olan ev təsərrüfatlarında gəlirlərin artmasına səbəb olur. Tədqiqatda göstərilir ki, yoxsulluq səviyyəsinin MƏH-ə görə elastikliyi üzun müddətli, yəni və daha çox illəri əhatə edən dövr üçün -0220-dən -0.459 arasında dəyişir. Litwin (2019) [6] OECD ölkələri timsalında apardığı tədqiqatda iddia edir ki, bu birliyə daxil olan ölkələrdə MƏH-in artması gəlir bərabərsizliyinin azalmasına səbəb olur. Lakin tədqiqatda mühüm nəticə ondan ibarətdir ki, MƏH-in davamlı olaraq artması deyil, müəyyən optimal səviyyəyə qədər artması gəlir bərabərsizliyini azaldır. Bu həddən kənarda isə əks effekt baş verir.

Lin (2016) [7] bu problemi Çin timsalında tədqiq edib. Qeyd edək ki, Çin iqtisadiyyatı sürətlə inkişaf edir. Amma, bununla yanaşı Çində gəlir bərabərsizliyi hələ də yüksəkdir. Ölkə inkişaf etdikcə, əhalinin gəlirləri artdıqca, gəlir bərabərsizliyi də artıb. Lakin 2004-2009-cu illəri əhatə edən dövr üçün aparılan panel analiz, həmçinin ev təsərrüfatları arasında aparılan sorğular sübut edir ki, MƏH-in artması qeyri-bərabərsizliyi azaldıb. Bunun səbəbi gəlirlərin paylanmasında median ilə aşağı səviyyə arasındakı fərqlərin azalması hesabına baş verib.

Maurizio və Vazquez (2016) [8] tərəfindən yerinə yetirilən tədqiqatda Latın Amerikası ölkələrində real MƏH-in gəlir paylanmasına təsirləri analiz edilib. Tədqiqata dörd ölkə üzrə, yəni Argentina, Braziliya, Çili və Uruqvay üzrə 2000-2012-ci illəri əhatə edən məlumatlar daxil edilib. Paylanma funksiyasını qiymətləndirmək üçün semiparametrik texnikadan istifadə edilib. Əldə edilən nəticələr sübut edir ki, Argentina, Braziliya və Uruqvayda MƏH qeyri-bərabərliyin azaldılması təsirinə malikdir. Bu ölkələrdə MƏH-in artması nəticəsində gəlirlərin paylanmasının aşağı hissələrində sıxlaşma baş verir. Belə sıxlaşma isə gəlirlərin qeyri-bərabərliyi səviyyəsini azaldır. Çili timsalında MƏH-in gəlirlərin qeyri-bərabərliyinə belə təsirləri yoxdur.

Latın Amerikası ölkələri timsalında oxşar tədqiqat Lombardo və digərləri (2022) [9] tərəfindən də aparılıb. Bu tədqiqata altı ölkə daxil edilib. Bu ölkələrdə MƏH fərqlidir. Tədqiqatda sübut olunur ki, bu ölkələrdə MƏH-in artması 2000-ci illərin əvvəllərində əmək haqqının paylanmasında sıxlaşdırma təsirinə malikdir. Həmin dövrdə bu ölkələrdə sürətli iqtisadi artım və əmək bazarında canlanma baş verib. Lakin, 2010-cu illərdə əmək bazarı bir qədər zəifləyib.

Redmond və digərləri (2020) [10] İrlandiya timsalında MƏH səviyyəsinin altı faiz artmasının saathesabı əmək haqqının və ev təsərrüfatlarının gəlirlərinin paylanmasına təsirlərinin qiymətləndirilməsi üçün reqresiya analizindən istifadə edilib. Tədqiqat zamanı hesablamalar göstərib ki, MƏH-in artması 90-cı və 10-cu prosentildə əmək haqları səviyyəsinin nisbətini səkkiz faiz, 75-ci və 25-ci prosentildə dörd faiz azaldır. MƏH-in işçilərin əmək haqlarına təsirləri yaşdan asılı olaraq da dəyişir. Belə ki, MƏH-in artması yaşı 25-ə qədər olan işçilərin 90-cı və 10-cu prosientildəki əmək haqları arasındakı nisbəti 24 faiz azaldır.

Bauducco və Janiak (2018) [11] tərəfindən aparılan tədqiqatda MƏH-in məşğulluğa, kapital yığımına, əmək haqqının paylanmasına və digər

makroiqtisadi göstəricilərə təsiri kəmiyyətcə qiymətləndirilib. Tədqiqatın nəticələrinə əsasən MƏH-in yüksək olmayan səviyyədə dəyişməsi məşğulluq səviyyəsinə təsir göstərmir. Lakin belə dəyişmələr əmək haqqının paylanmasını sıxlaşdırmaqla əmək haqlarının artırılmasına səbəb olur. Caliendo və digərləri (2017) [12] tərəfindən yerinə yetirilən tədqiqatda isə Almaniyada MƏH ilə bağlı qanunvericiliyin əmək haqlarının paylanmasına təsirləri kəmiyyətcə qiymətləndirilib. Alınan nəticələr göstərir ki, MƏH ilə bağlı qanunvericiliyin qəbulu saat hesabı əmək haqlarının paylanmasının aşağı hissəsinin artmasına səbəb olur. Almaniya timsalında MƏH-in gəlir bərabərsizliyinə təsirləri Bossler və Schank (2020) [13] tərəfindən yerinə yetirilən tədqiqatda da öz əksini tapıb. Tədqiqatda 2000-2017-ci illərarası dövrdə aylıq əmək haqlarının dəyişməsinə MƏH-in təsirləri kəmiyyətcə qiymətləndirilib. Müəlliflər tədqiqatın əhatə etdiyi dövrdə əmək haqları üzrə qeyri-bərabərliyin əvvəlcə artması, lakin sonra əvvəlki səviyyəsinə qədər azalmasında MƏH-in təsirinin nə dərəcədə olmasını kəmiyyətcə qiymətləndirmişlər. Tədqiqat zamanı "fərqlilikdə fərqlər" metodundan istifadə edilib. Alınan nəticələr sübut edir ki, MƏH əmək haqları üzrə paylanmanın aşağı hissəsinə təsir göstərir. Məşğulluğun dinamikası əmək haqqı üzrə paylanmanın xarakterinə təsir göstərmir.

Churchill və Sabia (2019) [14] ABŞ-da aşağı ixtisaslı immiqrantların iqtisadi rifahına MƏH-in tətbiqinin kəmiyyətcə analizini yerinə yetirərək belə nəticəyə gəlirlər ki, MƏHin artması az ixtisaslı immiqrantların məşğulluğuna mənfi təsir edir. Lakin, belə təsirlər getdikcə azalır. Miqrasiya ilə bağlı dövlətin həyata keçirdiyi siyasət aşağı ixtisaslı immiqrant işçilərin formal məşğulluqdan qeyri-formal məşğulluğa keçməsinə səbəb olur. Hesablamalara əsaslanaraq, müəlliflər belə nəticəyə gəlirlər ki, immiqrantlar arasında yoxsulluğun azaldılmasında MƏH səmərəli instrument deyil.

Engbom və Moser (2021) [15] Braziliya timsalında MƏH-in gəlir bərabərsizliyinə təsirlərini kəmiyyətcə qiymətləndiriblər. Tədqiqat göstərir ki, 1994-cü ildən başlayaraq, Braziliyada gəlir bərabərsizliyinin azaldılmasında MƏH-in artması mühüm rol oynayıb. Braziliya timsalında alınan nəticələr yuxarıda nəzərdən keçirdiyimiz tədqiqatlardakı nəticələrdən bir qədər fərqlənir. Belə ki, tədqiqatın nəticələrinə əsasən MƏH əmək haqları üzrə paylanmanın hətta yüksək hissələrinə də təsir göstərir. Bunun nəticəsində 1994-cü ildən sonra Braziliyada loqarifmik gəlirlərin loqarifmik dispersiyasının aşağı düşməsi izah edilir.

Əmək haqları üzrə, həmçinin ev təsərrüfatlarının gəlirləri üzrə qeyri-bərabərsizliyə MƏH-in təsirlərinə həsr edilən çoxlu sayda tədqiqatların müqayisəli analizi deməyə əsas verir ki, belə təsirlər eyni nəticələrə səbəb olmur. MƏH səviyyəsindən, onun tətbiq edildiyi iqtisadi fəaliyyət sahələrindən, ölkədə orta əmək haqqı səviyyəsindən, dəyişməsi miqyasından və sair digər amillərdən asılı olaraq, qeyri-bərabərlik səviyyəsinə olan təsirlər də fərqli olur.

**Bəzi inkişaf etməkdə olan ölkələrdə minimum əmək haqqının gəlir bərabərsizliyinə təsirinin qiymətləndirilməsi**

MƏH dünyanın əksər ölkəsində tətbiq edilir. Lakin dövlətin iqtisadiyyata müdaxilə formalarından biri kimi, onun həmişə səmərəli olmasını təsdiq etmək mümkün deyil. Buna baxmayaraq, MƏH aşağı ixtisaslı işçilərin sosial müdafiəsi ilə bağlı olduğundan əksər ölkələr onun tətbiqinə üstünlük verirlər. MƏH-in adambaşına ÜDM həcmindən asılılığını təsvir edən 1-ci qrafikdə heteroskedastikliyin olmasına baxmayaraq, iddia etmək olar ki, ölkənin gəlirləri çoxaldıqca daha yüksək MƏH tətbiq etməyə meyil vardır.




**Qrafik 1. Bəzi ölkələrdə MƏH-in (cari ABŞ dolları-aylıq) a.b.ÜDM həcmindən (cari ABŞ dollar-illik) asılılığı (2021)**




**Qrafik 2. Bəzi ölkələrdə Gini indeksinin a.b.ÜDM-dən asılılığı (cari ABŞ dolları) (2020)**

Məsələn, Beynəlxalq Əmək Təşkilatının (İLO, 2022) məlumatlarına əsasən İsveçrədə 2021-ci ildə aylıq MƏH 4385 ABŞ dolları, Uqandada isə 1.67 ABŞ dolları həcmində olub. Həmin ildə Azərbaycanda MƏH 147.06 ABŞ dolları olub. İnkişaf səviyyələri müxtəlif olan 133 üzrə MƏH-in a.b.ÜDM həcmindən asılılığını ifadə edən 1 qrafikinə əsasən bu ölkələrin əksəriyyətində MƏH orta qiymətdən, yəni 522 ABŞ dollarından azdır. Bu sıralamada median 244.12 ABŞ dollarıdır (Samoa).

İnkişaf səviyyələri müxtəlif olan 50 ölkə üzrə Gini indeksinin a.b.ÜDM həcmindən asılılığı (qrafik 2) isə bu göstəricilər arasında ciddi əlaqənin olmadığını göstərir. Lakin a.b.ÜDM həcminin artması ilə Gini indeksinin azalması tendensiyası müəyyən qədər hiss edilir.

**Cədvəl 1**

Dependent Variable: GINI
Method: Panel Least Squares
Date: 01/03/23 Time: 23:22
Sample: 2011 2020
Periods included: 10
Cross-sections included: 28
Total panel (balanced) observations: 280

| Variable | Coefficient | Std. Error | t-Statistic | Prob |
|---|---|---|---|---|
| MW | -0.001730 | 0.000497 | -3.482842 | 0.000 |
| C | 35.08298 | 0.513188 | 68.36282 | 0.000 |

| | | | |
|---|---|---|---|
| R-squared | 0.041809 | Mean dependent var | 33.7410 |
| Adjusted R-squared | 0.038363 | S.D. dependent var | 5.78437 |
| S.E. of regression | 5.672337 | Akaike info criterion | 6.31619 |
| Sum squared resid | 8944.764 | Schwarz criterion | 6.34216 |
| Log likelihood | -882.2675 | Hannan-Quinn criter. | 6.32661 |
| F-statistic | 12.13019 | Durbin-Watson stat | 0.03345 |
| Prob(F-statistic) | 0.000576 | | |

**Cədvəl 2**

Dependent Variable: GINI
Method: Robust Least Squares
Date: 01/03/23 Time: 23:20
Sample: 2011 2020
Included observations: 280
Method: M-estimation
M settings: weight=Bisquare, tuning=4.685, scale=MAD (median centered)
Huber Type I Standard Errors & Covariance

| Variable | Coefficient | Std. Error | z-Statistic | Prob. |
|---|---|---|---|---|
| MW | -0.001814 | 0.000517 | -3.506331 | 0.000 |
| C | 35.03668 | 0.534473 | 65.55369 | 0.000 |

| Robust Statistics | | | |
|---|---|---|---|
| R-squared | 0.041860 | Adjusted R-squared | 0.03841 |
| Rw-squared | 0.064819 | Adjust Rw-squared | 0.06481 |
| Akaike info criterion | 363.6556 | Schwarz criterion | 370.497 |
| Deviance | 7190.889 | Scale | 4.47410 |
| Rn-squared statistic | 12.29436 | Prob(Rn-squared stat.) | 0.00045 |
| **Non-robust Statistics** | | | |
| Mean dependent var | 33.74107 | S.D. dependent var | 5.78437 |
| S.E. of regression | 5.673730 | Sum squared resid | 8949.15 |

Gini indeksinin MƏH səviyyəsindən asılılığını müxtəlif gəlirli ölkələrdə qiymətləndirmək üçün 28 ölkə üzrə 10 ili əhatə edən panel analizin nəticələri deməyə əsas verir ki, bu göstəricilər arasında əks, lakin xeyli zəif əlaqə mövcuddur (cədvəl 1 və cədvəl 2).

## ƏDƏBİYYAT SİYAHISI:

1. Selin Pelek, 2013. The impact of the minimum wage on the wage distribution: Evidence from Turkey
2. Malloy, L. C. (2016, March). The minimum wage, bargaining power, and the top income share. In Forum for Social Economics (pp. 1-24). Routledge. Available at: https://doi.org/10.1080/07360932.2016.1155468
3. Autor, D.H., Manning, A. and Smith, C.L. (2016). "The Contribution of the Minimum Wage to US Wage Inequality Over Three Decades: A Reassessment", American Economic Journal: Applied Economics, vol. 8 (1), pp. 58-99.
4. Cengiz, D., Dube, A., Lindner, A., and Zipperer, B. (2018). "The Effect of Minimum Wages on Low-Wage Jobs: Evidence from the United States using a Bunching Estimator", CEP Discussion Paper, No. 1531.
5. Dube, A. (2019). Minimum wages and the distribution of family incomes. American Economic Journal: Applied Economics, 11(4):268–304
6. Litwin, Benjamin S., "Determining the Effect of the Minimum Wage on Income Inequality" (2015). Student Publications. 300. https://cupola.gettysburg.edu/student_scholarship/300
7. Lin, Myeong-Su Yun, 2016. The Effects of the Minimum Wage on Earnings Inequality: Evidence from China. IZA. Discussion Paper No. 9715 February 2016.
8. Maurizio, R. and Vazquez, G. (2016). "Distribution Effects of the Minimum Wage in Four Latin American Countries: Argentina, Brazil, Chile and Uruguay", International Labour Review, vol. 155 (1), pp. 97-131.
9. Carlo Lombardo & Lucía Ramirez-Veira & Leonardo Gasparini, 2022. "Does the Minimum Wage Affect Wage Inequality? A Study for the Six Largest Latin American Economies," CEDLAS,

Working Papers 0302, CEDLAS, Universidad Nacional de La Plata.

10. Paul Redmond, Karina Doorley, Seamus McGuinness, 2020. The Impact of a Minimum Wage Change on the Distribution of Wages and Household Income. IZA DP No. 12914

11. Bauducco, S. and Janiak, A. (2018). "The Macroeconomic Consequences of Raising the Minimum Wage: Capital Accumulation, Employment and the Wage Distribution", European Economic Review, vol. 101, pp. 57-76

12. Caliendo, M., Fedorets, A., Preuss, M., Schröder, C. and Wittbrodt, L. (2017). "The Short-Term Distributional Effects of the German Minimum Wage Reform", IZA Discussion Papers 11246, Institute for the Study of Labor (IZA)

13. Mario Bossler and Thorsten Schank, 2020. Wage Inequality in Germany after the Minimum Wage Introduction. IZA DP No. 13003

14. Churchill, B.F. and Sabia, J.J. (2019). "The Effects of Minimum Wages on Low-Skilled Immigrants' Wages, Employment, and Poverty", Industrial Relations: A Journal of Economy and Society, vol. 58 (2), pp.275-314.

15. Engbom, N. and Moser, C. (2021). Earnings Inequality and the Minimum Wage: Evidence from Brazil. Working Paper 28831, National Bureau of Economic Research. https://www.nber.org/system/files/working_papers/w28831/w28831.pdf

**Эмиль Чингиз оглы ГЮЛЬАЛИЕВ**
Докторант Азербайджанского Государственного
Экономического Университета (UNEC)

## ВЛИЯНИЕ МИНИМАЛЬНОЙ ЗАРАБОТНОЙ ПЛАТЫ НА НЕРАВЕНСТВО ДОХОДОВ (МЕТОД ПАНЕЛЬНОГО АНАЛИЗА)

**Резюме**

В статье оценивается влияние минимального уровня оплаты труда на неравенство доходов в стране. Результаты исследования, проведенного на примере разных стран, свидетельствуют о том, что связь между этими показателями варьируется от страны к стране и носит неодинаковый характер. В данном исследовании был проведен панельный анализ стран с разным уровнем дохода. Панельный анализ проводился на основе данных за 10 лет по 28 странам. Результаты панельного анализа доказывают наличие обратной, но гораздо более слабой связи между этими показателями.

**Ключевые слова:** *неравенство доходов, индекс Джини, минимальная заработная плата, доход домохозяйства*

**Emil Chingiz oglu GULALIYEV**
Doctoral student of Azerbaijan State
University of Economics (UNEC)

## IMPACT OF MINIMUM WAGE ON INCOME INEQUALITY (PANEL ANALYSIS METHOD)

**Summary**

The paper evaluates the effects of the minimum wage level on income inequality in the country. The results of the research conducted on the example of different countries suggest that the relationship between these indicators varies from country to country and is not of the same nature. In this study, a panel analysis was conducted on countries with different income levels. Panel analysis was conducted on the basis of data covering 10 years for 28 countries. The results of the panel analysis prove that there is an inverse but much weaker relationship between these indicators.

**Keywords:** *income inequality, Gini index, minimum wage, household income*